Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir



# Gideonun Kiçik Ordusu

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Janie Forest

Uyğunlaşdıran: Ruth Klassen

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2017 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.


Yeşua öləndən sonra bütün İsrail xalqı Allaha itaətsizlik etdi və Onu
həyatlarından çıxartdı. Allah qonşu ...


... Midyanlılara İsraillilərin taxıllarını və evlərini yandırmalarına izin verdi.
İsraillilər mağaralarda yaşamalı oldular.



Bir İsraillinin, Gideonun yəqin ki, taxılı becərmək üçün gizli bir yeri var imiş. O,

taxılı böyük bir ağacın altında ...



... gizlədilmiş üzüm əzənlə döydü. Midyanlar yeri bilmirdilər, amma Allah bilirdi! Allah

Gideonun yanına bir xəbər ilə mələk göndərdi.

Allah istəyirdi ki, Gideon yalançı allah təsviri olan öz atasının şəklini məhv etsin və həqiqi Allaha qurbangah tiksin. Gideon öz yerlilərinin onu öldürməsindən qorxduğuna baxmayaraq, o, Allahın əmrini yerinə yetirdi.



Allah həmçinin Gideonu zalım Midyanlılara qarşı İsrail ordusuna başçılıq etməsini istəyirdi.  Lakin Gideon qorxurdu. O, Allahın onunla olması üçün xüsusi bir ələmət istədi. O, qıvrım qoyun yununu yerə qoydu.





“Əgər qoyun yunu üzərində şeh varsa və torpaq qurudursa”, Gideon dua etdi “onda mən biləcəyəm ki, dediyin kimi, Sən İsraili mənim əlimlə xilas edəcəksən”.



Səhər tezdən torpaq quru, lakin
QOYUN YUNU YAŞ İDİ!

Gideon hələ də şübhə edirdi. İndi o istəyirdi ki, Allah qoyun yununa yox, torpaq üzərinə şeh göndərsin. Növbəti gün torpaq yaş, QOYUN YUNU İSƏ QURU İDİ!



Gideon 32 000 ordu topladı. Allah onun ordusunun sayını 300 nəfərə saldı. Allah İsrailin “mənim öz əllərim məni xilas etdi” deməsini istəmirdi. Yalnız Allah İsrailin Xilaskarı idi.



Gideonun hələ də qorxduğunu bilərək, Allah ona gizlicə Midyan əsgərlərinin digərinə qəribə yuxusu haqqında danışdığına qulaq asmasına izin verdi.

Yuxuda yumru çörək Midyanlıların çadırına qarşı getdi və onu dağıtdı.



Digər gözətçi vahiməyə düşdü.
“Bu, ... Gideonun qılıncıdır” o
qışqırdı.  Gideon yuxunu və onun
mənasını eşidəndə bildi ki, Allah
ona qələbə verəcək.



Gideon gecə hücumu planlaşdırdı. O, hər bir əsgərə şeypur və içərisində məşəllər olan boş dolçalar verdi. Onlar Midyan ordusunu əhatəyə aldılar.



Gideon işarə verəndə əsgərlər şeypurlarını çaldılar, dolçalarını qırdılar və məşəllərini yandırdılar.  Necə də səs-küy qalxdı! Necə bir çaşqınlıq oldu! Qorxmuş Midyanlılar qalxdılar və qaçdılar.



Bu böyük qələbədən sonra İsraillilər onların üzərində hakim olmasını Gideondan xahiş etdilər.



“Mən sizin üzərinizdə hakim olmayacağam… Rəbb sizin üzərinizdə hakimlik etməlidir” Gideon cavab verdi.



O bilirdi ki, yalnız Allah insanların həyatında hakimlik etmək hüququna malikdir.



# Gideonun Kiçik Ordusu

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Hakimlər 6-8

"Kəlamının açıqlanması nur saçır".
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət
olduğuna inanırsansa, onda bunu Allaha de:
Əziz İsa, mən inanıram ki, Sən Allahsan və
mənim günahlarıma görə ölmək üçün insan oldun
və indi Sən yenidən yaşayırsan.  Xahiş edirəm,
həyatıma gəl və mənim günahlarımı bağışla ki,
mən indi yeni həyata malik ola və bir gün Səninlə
birlikdə əbədiyyən yaşaya bilim.  Sənə itaət
etməkdə və Sənin övladın kimi yaşamaqda mənə
kömək et.  Amin.

**Müqəddəs Kitabı oxu və hər gün**
**Allahla danış!   Yəhya 3:16**